# YERİ GÖRÜNƏN ADAM



**Bu, bir xatirə-anım yazısıdır...**

**Ömründə heç kimdən təmənnası olmayan, yalnız özünə güvənən, ümumən ictimai mənafe - vətən və xalq naminə, insanlıq, vətəndaşlıq eşqinə Uca Yaradanın bəxş etdiyi alın yazısını mərd-mərdanə yaşamış peşəkar tərcüməçi, istedadlı jurnalist, həqiqi ziyalı Akif Əvəz oğlu Qəhrəmanlının həyat yoluna ekskurs xarakterli qədirdanlıq yazısı... Xatirəsinə olan mənəvi borcumun, fiziki yoxluğuna təəssüf hissindən doğan fikir və duyğularımın ifadəsi...**

İllərin həyat təcrübəsindən belə dərk etmişəm ki, hər bir insanın dünyaya gəlişində bir məna, məqsəd olur. Bunlar canda-qanda doğulur, zaman-zaman adamın ruhunda, düşüncəsində yer alır, sonradan hərəkət və davranışında özünü büruzə verir, fəaliyyətinə daxil olur və nəhayət, həyat vərdişinə çevrilir. Bir də baxır ki, Tanrıdan ona əta olunmuş vəzifəni yerinə yetirmək yolunda ömür əridir...

Azərbaycanda tərcümə sənətinin ustadlarından olan, istedadlı qələm sahibi, bütöv əqidə, məslək adamı, həqiqi ziyalı Akif Qəhrəmanlının bu dünyaya gəlişinin ümdə missiyası öyrətmək, tərbiyələndirmək, yetişdirmək, xeyirxahlıq etmək, olduğu, göründüyü yerlərdə xoş aura yaratmaq, insanlara sevinc, ümid bəxş etmək, xalqına xidmət etmək olmuşdur. Bu, sözün həqiqi, mütləq mənasında belədir, belə də olmuşdur.

Akif Qəhrəmanlı bütün ömrünü, həyatını insanlara gərəkli olmaqdan ötrü şüurlu surətdə, qəlbinin istəyi, ürəyinin diktəsi ilə ağır zəhmətlərə qatlaşaraq öhdəsinə aldığı vəzifələri yerinə yetirməyə sərf etmişdir. Bunun üçün Uca Yaradan ona ağıl, güclü fəhm, istedad, qabiliyyət vermiş, eyni zamanda insanlara, cəmiyyətə fayda verməsindən ötrü onu sınağa, imtahana çəkərək, qarşısına çətin, əziyyətli bir yol çıxarmış, bununla elə bil, "bu sənin həyat yolundur", - demişdir. Onun çiyni də, ürəyi də həmişə ictimai yükün altında olub. Amma o, bundan əsla rəncidə qalmayıb. Bir də ki, insanların sənə olan ehtiyacına (böyüklüyündən və kiçiklyindən asılı olmayaraq) həssaslıqla yanaşmaq, hamıya, hər kəsə gərəkli olmaq, xalqına, dövlətinə xidmət etməkdən üstün bir vəzifə, mənəvi borc varmı?

Otuz ildən də artıq tanışlığımız, dostluğumuz ərzində mən Akif müəllimi böyük çıxmasın, varaq-varaq oxumuşam, daxili aləmini duymağa çalışmışam. Məqamlar olub ki, ondan öyrənmiş, sözünə, məsləhətinə böyük dəyər vermişəm. Bilik dairəsinə, həyat təcrübəsinə, düz adam olduğuna görə həmişə ona ehtiramla yanaşmışam. Kimdəsə, nədəsə yanılmadığına görə onu insan sərrafı kimi tanımışam. Ən ümdəsi də kamilliyinə, müdrikliyinə heyran qalmış, bu ümdə keyfiyyətlərinə görə hətta ona qibtə də etmişəm (təbii ki, yaxşı mənada!). İlk vaxtlar düşünürdüm ki, görəsən, belə bir təbiətdə, xarakterdə olmaq ona hardan və kimdən keçib? Və özüm də öz sualıma cavab tapırdım: əlbəttə ki, gözünü açdığı ailədən!

Burda bir qədər əvvələ, ötən əsrin yetmişinci illərinə qayıdıram. O zaman Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində oxuyurdum. Üçüncü kursdan (1974) "Gənclik" nəşriyyatında işə başladım. İlk əmək fəaliyyətimin ünvanı olan bu yer, bu yaradıcılıq məkanı həyatım boyu mənim üçün böyük bir məktəb statusunda oldu... Gənclik illərindən belə bir şakərim vardı: yaşca özümdən böyük insanlarla oturub-durmağı xoşlayırdım. Sonradan ən sədaqətli, dərrakəli dost-tanışımı da onların arasından seçdim. Yox, mən seçmədim, həyat özü onları mənim qarşıma çıxardı, sanki onlardan öyrənməyim, yetişməyim, həyat təcrübəmin qazanılmasından ötrü Adil Allah bu insanları mənə ürcah etdı. Onlardan biri (həm də birincisi!) BDU-nun Jurnalistika fakültəsini qırmızı diplomla bitirmiş, uzun illər "Gənclik" nəşriyyatında redaktor, redaksiya müdiri işləmiş, sonralar "Təhsil"də fəaliyyətini davam etdirmiş, bir neçə tərcümə kitabının müəllifi, Əməkdar mədəniyyət işçisi Məsudə Əvəz qızı Zeynalova idi. Həmin illərdə mən 15 yaş özümdən böyük olan ləyaqətli, savadlı, sözün həqiqi mənasında ağıl dəryası kimi tanıdığım bu xanıma ürək qızdırdım, bütün qəlbimlə bağlandım... (Bu istək, bağlılıq qırılmamış, bu gün də davam edir). Ən çətin anlarımda ondan böyüklük gördüm, mənəvi dəstək aldım.

1982-ci ildə Akif müəllim Azərbaycan Dövlət Nəşriyyatında (Azərnəşr) Siyasi ədəbiyyat şöbəsinin müdiri kimi işə başlayanda Məsudə xanım onu mənimlə tanış edərək, qardaşımdı, dedi. Məni isə ona belə təqdim etdi: Şəfəq cəsarətli, qorxmaz qızdı, həm də əliqələmlidi. Akif müəllim də cavabında: əsl bizim adamdı, - dedi. Burdan belə onunla da dostluğumuzun təməli qoyuldu. Sonradan bu ailənin digər övladlarından biri - savadı, təmkini, məntiqi ilə ürəyimə yatan gözəl, xanım-xatın Rəna da (hazırda uzun illər çalışdığı Nəriman Nərimanovun Xatirə Muzeyində fəaliyyətini davam etdirir) dostluq siyahıma daxil oldu. Və daha sonralar ailənin özünəməxsus keyfiyyətləri ilə seçilən əsilzadə, ictimai xadim, iki seçkidə Milli Məclisin üzvü olmuş millət vəkili, sakit təbiətli, təvazökar Eldar Qəhrəmanovu da tanıdım. Doğrudur, onunla elə bir yaxınlığım, dostluğum olmasa da o, məni doğmalarının təqdimatından yaxşı tanıyırdı. Təsadüfən, harda, hansısa bir məclisdə onu uzaqdan görəndə irəli durub görüşməyə ürək etməsəm də, özü mənə yaxınlaşaraq əl verib, hal-əhval tutub. Bax, bu davranış, hərəkət də məncə, nəcabətli insanlara xas olan xüsusiyyətdir...

Hələ o zamandan zənn edirdim ki, cəmiyyətə yüksək ali təhsilli, xalqsevər, yurdsevər vətəndaşlar, 9 övlad yetişdirən valideynlər çox güman ki, böyük həyat təcrübəsinə, gözəl keyfiyyətlərə malik, bəsirətli, intizamlı insanlardı. Və zaman keçdikcə görürdüm ki, zənnimdə yanılmamışam...

Əsli-kökü Şuşanın bəy nəslindən olan, qədim Bərdə torpağında böyük Nizaminin yurdunda dünyaya gələn Əvəz müəllim - ailənin başçısı Əvəz Əbdürrəhimov (1908-1984) 30-cu illər repressiyası dövrünün qara-qorxuları içərisində acı, səksəkəli illər yaşayıb. Hələ ana bətnindəykən atasını itirən yetim oğlan 1920-ci ildə Bərdədə görkəmli ziyalı Nəcəf bəy Ağamirovun müdir olduğu 7 illik məktəbin 2-ci sinfinə daxil olur və həmin məktəbi əla qiymətlərlə bitirir. Oxumağa, öyrənməyə təşnə olan yeniyetmə gənc bundan sonra Bakıya üz tutur, İşçi fakültəsində təhsil alır. Ardınca 2 illik qiyabi Müəllimlər İnstitutunda oxuyur, dövrün böyük pedaqoqları, maarifçi ziyalılarından mükəmməl dərs alır. Görün, bu nadir şəxsiyyətlər - müəllimlər kimlər imiş: Hüseyn Cavid, İsmayıl bəy Qaspiralı, Əlibəy Hüseynzadə, Azadbəy Əmirov, Əhməd Pepinov, Sami Kamal, Ruhulla Axundov, Vəli Xuluflu, Tağı Şahbazi Simurq...

O vaxtlar Müəllimlər İnstitutunda kollektiv şəkil çəkdirərkən arıq, cılız oğlan olduğundan Cavid əfəndi onu dizinin üstündə əyləşdirib. Həmin şəkli də qara yelin havasından alıb hifz edə bilməyib, onu da qorxusundan yandırıb. Sevimli, istəkli müəlliminin özü isə ömrü boyu gözündə-könlündə canlı-canlı yaşayıb...

Əvəz müəllimin ailəsində ciddi, dəmir qayda-qanun hökm sürüb. 40-50-ci və sonrakı illərdə bir çox müəllim ailələrinə xas olan bu cəhətlər onların evində bəlkə də qədərindən çox olub. Uşaqlar məktəbdə əla oxumalı, ailədə yaşanılan çətinliklərə qatlaşmalı, bir-birlərinə qayğı göstərməli, dayaq olmalı, gecə-gündüz çalışmalı, işləməli idi. Belə olmasaydı, 11 baş külfətin taleyi necə olardı?! Bu kimi əziyyətli işlərə, həyat tərzinə düzgün istiqamət verməyin, nümunəvi tərbiyə üsulu ilə övladlar yetişdirməyin, mükəmməl pedaqoji təcrübənin özü bir məktəb idi. Bu məktəbin müdavimləri ailədən əxz etdikləri bir çox keyfiyyət və prinsiplərə malik olduqlarından hər biri öz bilik və bacarığı, əxlaq və mədəniyyəti ilə çoxlarından fərqləndilər.

Təbii ki, ailədə belə tərbiyəli, yüksək erudisiyaya malik övladların, xalis vətəndaşların yetişməsində Əvəz müəllimin həyat yoldaşı - könül sirdaşı, sevinc-kədər ortağı, Töhfə xanımın da ana olaraq zəhməti misilsizdir. Bir-birinin taleyinə işıq təki saçılan bu iki gəncin də həyatda qarşılaşmaları heç şübhəsiz, Yaradanın bəxş etdiyi bir qismət idi. Əvəz Əbdürrəhimov Bakıda Müəllimlər İnstitutunda oxuyarkən belə bir ağıllı, savadlı qızla rastlaşdığından həyata marağı, sevgisi birə-beş artır. Bu qız bəy nəslindən olan oğlanın səksəkələr içində yaşadığı ömür-gününə həmdəm olur. Birgə bölüşürdərdləşir, gələcək həyatları barədə düşünürlər. Töhfənin təhsilli, dünyagörüşlü olması Əvəzin ürəyindən idi. Axı, savadlı ana təkcə övladlarının deyil, həm də cəmiyyətin tərbiyəçisidir...

Akif də hələ kiçik yaşlarından ailənin digər üzvlərinin öhdəsinə aldığı yükün payına düşən hissəsini ləyaqətlə daşıyıb. Ailə-məişət qayğılarının bitib-tükənmədiyi şəraitdə də qəlbən bağlanıb alüdə olduğu geniş mütaliəsindən həyatı boyu ayrılmayıb. Bədii, elmi-kütləvi ədəbiyyatlardan oxuyub-öyrəndiyi biliklər ədəbi təfəkkürünün yetişib formalaşmasına, mənəvi zənginliyinin yaranmasına güclü təsir edib. Əsgəri xidmətdə olduğu zamanda, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində qiyabi təhsil alanda, Bakının müxtəlif fabrik və zavodlarında fəhlə, çilingər, Bakı Metropolitenində yanğınsöndürən işləyəndə, Azərbaycan Dövlət İnformasiya Agentliyində (indi AZƏRTAC adlanır), Azərbaycan Dövlət Nəşriyyatında (Azərnəşr), "Kommunist" qəzeti redaksiyasında, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında işlədiyi vaxtlarda belə, son dərəcə məsuliyyətli vəzifələri icra etməklə yanaşı, özünü yetişdirməyin qayğısına da qaldı.

Akif müəllim ömrünün zəhmətlə yoğrulmuş illərinin fəhləlikdən sonrakı mərhələsini (əslində o, bütün vəzifələrdə işinin qara fəhləsi olub) ədəbi, elmi, siyasi yaradıcılığa həsr edib. İlk olaraq tərcüməçilik peşəsindən başlayıb. İzlədiyim, bildiyim qədər Akif müəllim mətbuatda publisistik məqalələrlə az çıxış edib. Az yazıb, amma mükəmməl yazıb. Bu məqalələrin hər birində mövzunun ideya-mahiyyətini ustalıqla açıb, ictimai məzmun və mənasını bütünlükdə ifadə edib. Elə bu səbəbdən də o yazıların hamısı oxunaqlı və yaddaqalandır. Onun ictimai-siyasi xarakterli məqalələri milli mətbuatımızda siyasi publisistikanın dəyərli nümunələrindən hesab edilməlidir.

Akif Qəhrəmanlı 35-ə yaxın kitabı ruscadan Azərbaycan dilinə tərcümə edib. S.Kərimovun "Niyazi", Q.Kərimovun "Şəriət və onun sosial mahiyyəti", G.Şvetsin "Mən marafon qaçıram", L.Medvedkonun və A.Germanoviçin "Allahın adı ilə", Branko Çopiçin "Özümüz zillətdə, xəyalımız cənnətdə", B.Oleynikin "Zülmət sultanı" kitabları, eləcə də SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "İslam" (qısa məlumat kitabı) və "Müsəlman bayramları" kitabları Akif müəllimin geniş bilik dairəsinə, səriştə və qabiliyyətə malik olduğunun göstəricisidir...

Səksəninci illərin sonlarında mətbuatımızda ciddi mövzularda müzakirələr aparılır, cəmiyyətdə ümumxalq əhəmiyyətli məsələlərdən söhbət açılırdı. Yəni, bu elə bir dövr idi ki, gənclərin yeni ruhda tərbiyə olunması, onlarda vətənpərvərlik hissinin gücləndirilməsi, ana dilimizin saflığı, təmizliyi uğrunda mübarizə aparılmasında mətbuat ən güclü və başlıca vasitələrdən birincisi idi. Həmçinin dünya düzənində hökm sürən qarışıqlıq, müharibələr, milli azadlıq hərəkatı kimi mühüm məsələləri şərh etmək, xalqı maarifləndirmək zamanın tələbi idi. Akif Qəhrəmanlı da bir ziyalı vətəndaş olaraq ictimai-siyasi mövzuları, taleyüklü məsələləri öz səhifələrində ayna kimi əks etdirən "Səhər" qəzetində "Azərbaycan dili - dövlət dilidir. Onu həm öyrənməli, həm də öyrətməliyik" mövzusunda silsilə yazılarla çıxış edir. Eləcə də digər mətbuat orqanlarında ("Azərbaycan", "Bakı", "Yeni fikir", "Müstəqil qəzet", "Yurddaş," "Həftə", "Senzor"...) ana torpağa sədaqət və məhəbbət duyğularının ifadəsi olan məqalələri onun vətəndaş mövqeyinin təzahürü idi. Siyasi düşüncəsinin aynası olan çoxlu sayda analitik yazıları o illər Akif müəllimə oxucu sevgisi, inamı qazandırmışdı - populyar idi. Ümumiyyətlə, onun mətbuat yaradıcılığı (onların hamısının adını çəkmədən yalnız birini nümunə üçün qeyd edirəm: "Vətənpərvərliyin ünvanı olmur"), müəllifin mənəvi aləmi, hiss-duyğuları ictimai məzmun kəsb etməsilə olduqca cəlbedicidir. Ümumiyyətlə, bu mövzuda yazılmış məqalələrdən hər hansı biri ilə yaxından tanış olsaq, o zaman Akif Qəhrəmanlının vətənçilik əxlaqı ilə döyünən qəlbinin səsini eşitmiş olarıq...

Akif müəllimin publisistik yazılarında, həmçinin adicə gündəlik söhbətlərində, dostları, tanışları ilə mükalimə-bəhslərində, gənclərə tövsiyələrində elə maraqlı, müdrikanə fikirlər, məqamlar var ki, bəlkə də onları toplasaq, hikmətli sözlər, aforizmlərdən ibarət bir kitab tərtib etmək olar. Olsun ki, gələcəkdə bu işi də görəcəyik...

Akif Qəhrəmanlı bütün yaradıcılığı boyu jurnalistikaya böyük dəyər vermiş, sözə həssaslıqla yanaşmışdır. Bu sahədə çalışanların geniş dünyagörüşə, erudisiyaya və digər keyfiyyətlərə malik olmasını vacib sanmışdı. Bunun əksi olanlara qarşı mübarizə aparmağı isə hər zaman jurnalistlərə təlqin etmişdir. Onun "Zər qədrini bilən gərək..." məqaləsi də bu mənada adından başlamış, bütünlükdə ideya-məzmunu ilə məndə böyük maraq doğurdu: "Alaq otları tarlada mədəni bitkiləri basıb məhv etdiyi kimi, cılızlar dəstəsi də istedadlı bir sənətkarı, jurnalisti çərlədib sıradan çıxara bilər. Belə vəziyyətlərin aradan qalxması üçün ciddi səylər göstərilməlidir. Axı böyük Həsən bəy Zərdabidən başlanan Azərbaycan jurnalistikasının zəngin tarixi, gözəl ənənələri, unudulmaz örnək simaları vardır. Çoxsahəli, çoxşaxəli jurnalistikada çalışan, necə deyərlər, çörəyini ondan çıxaran şəxslərin dünyagörüşü seçdikləri peşəyə uyğun olmalıdır. Məhdud dünyagörüşlə, səthi biliklərlə, cılız hisslərlə jurnalistlik etmək bu sənətin özünün də, bütövlükdə cəmiyyətin də nüfuzunu aşağı salır...". Ürəkağrısı ilə dediyi bu fikirlərdən sonra müəllif özünün istedadı, səriştəsi, təcrübəsi ilə cəmiyyətdə rəğbətlə qarşılanan insanların, milli mətbuatımızın görkəmli nümayəndələrinin adını çəkəndə, xalqa xidmətindən bəhs edəndə sanki sözlər də sevinir, dildə-gözdə gül açır, könlümüz təzələnir...

Onun yazılarında ciddi təhlil, insanın xarakterini aça bilmək ustalığı, təşbehlərdən yaradıcılıqla istifadə etmək səriştəsi həmin məqalələri böyük həvəslə oxumağa, ondan zövq almağa və bəhrələnməyə zəmin yaradır. Təbii ki, bunlar mövzunu dərindən araşdırmaq, qəhrəmanını yaxından tanımaq, peşəkarlığını qiymətləndirmək bacarığından doğur. İllərlə bir yerdə çalışdığı istedadlı tərcüməçi Cəlil Xəlilova həsr etdiyi "Sənə ehtiyac var, ustad!" məqaləsi də bu baxımdan diqqətəlayiqdir. Akif Qəhrəmanlı yazır: "Tərcümənin ciddi və məsul iş olduğunu xatırlatmaqdan yorulmayan Cəlil müəllimin nəzərində asan istilah, termin, ifadə yox idi. O, hər sözün, hər ifadənin, məfhumun bütün məna çalarlarını öyrənməyincə dinclik tapmırdı. Lüğətləri ələk-vələk edir, sözün rus dilindən əlavə daha hansı dillərdə və hansı formalarda işləndiyini araşdırır, etimologiyasını, sinonimlərini tapır, Azərbaycan dilində, yaxud digər türk dillərində bu sözün, ifadənin necə tələffüz edildiyini aydınlaşdırır, yalnız bundan sonra qəti fikrə gəlirdi. Hər yeni sözün və ifadənin tərcüməsi üçün həmkarları ilə bütöv bir elmi diskussiya açırdı. Kollektiv qərarlara üstünlük verirdi. Ən cavan, ən naşı həmkarının rəyini də səbirlə, təmkinlə dinləyirdi - təki sözün ən münasib qarşılığı tapılsın". Görün o, işinin əsl peşəkarını necə bir bütövlükdə və incəliklə təqdim etmişdir...

* * *

Son bir neçə ildə çoxları kimi başımdan aşan ev-iş qayğıları ilə yükləndiyimdən Akif müəllimdən xəbərim olmadı. Demə, ağır insult keçirmiş, uzun müddət xəstəliklə əlbəyaxa olmuşdu. Daim insanların arasında olan, zamanın gərdişindən, dünyanın siyasi mənzərəsindən bəhs açan, müharibə və çəkişmələri məntiqlə, maarifləndirici səviyyədə şərh edən bir şəxsiyyətə əhatəsində olan insanlar həsrət qaldı, xiffət hissi qəlbləri çulğadı... Akif müəllimin səhhəti tədricən bərpa olunub ayağa qalxsa da nitqində yaranmış qüsur onu hamıdan uzaq saldı. Daha doğrusu, bu vəziyyətdə o - Azərbaycan və rus dillərinin mahir bilicisi, bülbül təki dil-dil ötən adam çətin tələffüzdanışığı ilə dostlar, tanışlar arasında görünməyi özünə rəva bilmədi. Təkcə 70-ci illərdən ürək qızdırdığı, dost olduğu jurnalist, tərcüməçi, Teymurşah Xaspoladovla çətin, acı günlərini şirinləşdirdi. Bir-birindən ayrılmadılar. O zaman mən də onu görmək istədim. Teymur dedi ki, bu vəziyyətdə o, heç kimin zənginə cavab vermir, bir kimsəylə də görüşmək istəmir. Tam sağaldıqdan sonra özü dostlarını arayacaq, qırılan əlaqələri bərpa edəcəkdi. Heyhat...

Amma bir həqiqət də ona gün kimi aydın idi: haqqa qovuşmaq Uca Yaradanın həyatda qoyduğu qanundur. Bundan bir kimsə qaça bilməz... Başqa bir həqiqət də var: hər dünyasını dəyişən də özündən sonra ikinci həyatı yaşamaq haqqını qazana bilmir. Bu xoşbəxtliyə sahib olanlar isə Haqqın dərgahından insanların yaddaşına gün kimi saçılırlar. Akif Qəhrəmanlı da bu haqqı özünün ali keyfiyyətləri - nəcibliyi, ziyalılığı, xalqa və dövlətə xidməti, bir də yazıb-yaratdığı əsərləri ilə qazandı...

Unuda bilməyəcəyimiz Adam, yerin yaman görünür...

**Şəfəq Nasir.**